# *Unudulmaz şəxsiyyət İsmayıl Şıxlı - 105*



*Ziyalılıq başqa şeydir, savadlılıq başqa.*

(Daycest)

**Bakı – 2023**

İsmayıl Şıxlı 1919-cu il martın 22-də Qazaxın İkinci Şıxlı kəndində müəllim və zadəgan ailəsində anadan olub. Bu səbəbdən də ömrü boyu təqiblərə məruz qalıb. İkinci dünya müharibəsi dövründə sovet ordusu tərkibində ön cəbhələrdə (Şimali Qafqaz, Krım, III Belorusiya cəbhəsi və Şərqi Prussiya istiqamətində döyüşən orduda sıravi əsgər) olmuşdur. Böyük Vətən Müharibəsi İsmayıl Şıxlının həyatına pozulmaz izlər qoyub. Onun bu barədə çoxlu yazıları, eyni zamanda xatirələri var. Qələbə gününün müjdəsini xatırlayan yazıçı yazır: "Katerin radiosundan Levitanın səsini eşitdim: "Düşmən danışıqsız olaraq təslim edilmişdir. May ayının 9-u Qələbə günü hesab olunur". Qaçıb yoldaşlarıma dedim, inanmadılar. Dan yeri qızarırdı. Ətrafa sükut çökmüşdü". İ.Şıxlının nəşr olunan ilk şeiri "Quşlar"dır, 1938-ci ildə "Ədəbiyyat" qəzetində dərc olunub. Həmin gün şair deyib: "Mən həm sevinirəm, həm də kədərlənirəm. Sevinirəm ki, şeirim çıxıb. Kədərlənirəm ki, bir də şeir yazmayacam". Yazıçının ən sevilən əsərlərindən olan "Dəli Kür" romanı 9 ilə ərsəyə gəlib. 1969-cu ildə yazıçının ssenarisi əsasında "Dəli Kür" filmi çəkilib. Lakin filmə qarşı SSRİ-də təzyiqlər olması səbəbi ilə bəzi səhnələr kəsilib. Yalnız təsadüf nəticəsində yandırılmayan filmin finalı müstəqillik illərində bərpa olunub.

«Azərbaycan» jurnalında baş redaktor (1976–1978), Azərbaycan Yazıçılar İttifaqının birinci katibi (1981–1987), SSRİ Yazıçılar İttifaqının katibi (1981–1987) olmuşdur. 1986-cı ildə Azərbaycan Yazıçılar İttifaqının sədri seçilmişdir. Azərbaycan Yazıçılar Birliyinin Ağsaqqallar Şurasının sədri seçilmişdir (1991).

Hüseyn Arifdən ən maraqlı lətifələri o qələmə alıb. Lakin bu lətifələrin hər biri üçün Hüseyn Arifdən icazə alıb. O lətifələr ki, şair tirajlanmasını istəməyib İsmayıl Şıxlı onları nəinki qələmə alıb, heç danışmayıb da! Hətta ən yaxın adamlarına belə. Hətta dəfələrlə ona üz vuranlara belə.

Elçin Şıxlı yaradıcılıq evlərinin birində tanış olduğu rus qızı ilə evlənmək istəyirmiş. İsmayıl Şıxlı onun qərarında qəti olduğunu görüb sakit səslə deyir: "Özün bilərsən, həyat sənindi, amma əgər o qızla evlənsən, bir daha mən olan evə ayaq qoymayacaqsan!". Bundan sonra Elçin Şıxlı fikrindən daşınır. Qəribədir ki, "Urus Əhməd" İsmayıl Şıxlının "Dəli Kür" romanının sevimli obrazı idi. Cahandar ağanın qızı da ona vurulmuşdu. Amma həyatda...

İsmayıl Şıxlı Bakıya gələndə ilk düşdüyü ev gələcək qayınatasının evi olub. Qohum kimi gəlib. O bina sonralar Yazıçılar İttifaqına verilib və İsmayıl müəllim Azərbaycan Yazıçılar İttifaqının sədri olanda həmin kabinetdə oturub. İndi həmin otaq AYB sədri Anarın iş otağıdır.

Şəkər xəstəliyindən gözləri tutulub, sonuncu əsəri olan "Ölən dünyam"ı diktə edib. Həyat yoldaşı yazıb. Sonra bir dəfə də üzünə oxutdurub qulaq asıb və deyib: "Hə, indi rahat ölə bilərəm". Ölüm ayağında heç bir vəsiyyət etməyib, amma övladlarına son sözü bu olub: "Adam olun, kişi kimi yaşayın!".

## Görkəmli şəxsiyyətlər İsmayıl Şıxlı haqqında

Sizin ədəbi, pedaqoji və ictimai fəaliyyətiniz hər bir gənc üçün əvəzsiz olmuşdur. Azərbaycan xalqının böyük bir nəslinin layiqli övlad, əsl vətəndaş və hərtərəfli şəxsiyyət kimi yetişməsində sizin əməyiniz böyükdür. Siz istedadlı yazıçı, müdrik və mahir pedaqoq, mübariz vətəndaş kimi xalqın qəlbində əbədi məskən salmısınız. Belə bir sevgiyə layiq görülmək ən böyük səadətdir.

***Heydər Əliyev***

***Azərbaycan xalqının Ümummilli lideri***

İsmayıl Şıxlı koloritli xarakterlər və yüksək mənəvi-əxlaqi keyfiyyətlərə malik surətlərlə zəngin yaradıcılığı ilə Azərbaycan xalqının bədii fikir salnaməsinə yeni parlaq səhifə yazmış söz ustalarındandır. Ədibin məşhur “Dəli Kür” romanı ictimai şüurda dönüşə və özünüdərkə yol açan mühüm ədəbi-mədəni hadisə kimi qiymətləndirilmişdir. Sənətkarın klassik irsin ənənələrini davam etdirməklə və folklor xəzinəsindən bəhrələnməklə meydana gətirdiyi əsərlərdə dərin həyat fəlsəfəsi öz dolğun ifadəsini tapmışdır.

***İlham Əliyev***

***Azərbaycan Respublikasının Prezidenti***

Nə Kür axıb qurtarandır, nə də İsmayıl Şıxlının sözü tükənəndir.

***Qabil***
***Xalq şairi***

Əzizim İsmayıl! “Dəli Kür” əsərini dünən gecə oxuyub qurtardım. Düzünü deyim ki, mən səndən yaxşı əsər gözləyirdim, amma bu cür qüvvətli və təsirli bir əsər yazmağını gözləmirdim. Əhsən, bərəkallah! Son on ildə bizim ədəbiyyatımızdan oxuduğum heç bir əsər məni bu cür sarsıtmamışdı”.

***Mehdi Hüseyn***
***Xalq yazıçısı***

İsmayıl Şıxlı bizim haqq deyən, haqq söyləyən, ədalət söyləyən ziyalımızdır.

***Yusif Səmədoğlu***
***Xalq yazıçısı***

İsmayıl Şıxlının “Dəli Kür” romanı ona görə oxucunun məhəbbətini qazanmışdır ki, orada yalnız ayrı-ayrı sürətlərin deyil, müəyyən tarixi dövr, bu dövrdə cəmiyyətin psixologiyası, ictimai ziddiyyətləri, inkişaf meylləri düzgün bədii əksini tapmışdır.

***Mirzə İbrahimov***
***akademik***

“...Sakit Don” romanında olduğu kimi, “Dəli Kür”də də əks etdirilən məsələlər epoxal səciyyə daşıyır. Bu əsərdə xalq taleyinin bədii inikası və xalq xarakterinin canlandırılmasında millilikl ə sinfiliyin əlaqə və tənasübü məsələsinə bədii-estetik baxışın təzəliyi diqqəti cəlb edir.

***Tofiq Hüseynoğlu***
***ədəbiyyatşünas-alim***

İsmayıl Şıxlının müharibə hekayələrinin səlisliyi, hadisələrin dəqiq təsviri böyük, ciddi yazıçı ustalığının nümunəsidir.

***Ziya Bünyadov***
***akademik***

Azərbaycan ədəbi-mədəni, ictimai-estetik təfəkküründə İsmayıl Şıxlı obrazı yazıçının yaratdığı obrazlardan, əgər belə demək mümkündürsə, daha mükəmməl, daha məşhur, daha bədiidir... O, həyatı, fəaliyyəti, yaradıcılığı ilə təkrarsız bir obrazİsmayıl Şıxlı obrazı, qeyri-adı metafora-İsmayıl Şıxlı metaforası yaratdı.

***

Mən İsmayıl Şıxlının şəxsiyyətində, yaradıcılığında, ümumən fəaliyyətində, mükəmməl bir hissin təsiri altında, əbədi dünyanın təzahürünü görürəm.

***

İsmayıl Şıxlının əsərləri öz yerində, onun böyük şəxsiyyəti də milli sərvətimizdir və istərdim ki, müşahidələrin dairəsində həmin şəxsiyyəti xarakterizə edim.

Hər şeydən əvvəl, onun etnoqrafik zənginliyindən danışmaq lazımdır – İsmayıl Şıxlı elə bir torpaqda dünyaya gəlib ki, orada həm məişətdə, həm əxlaqda, həm də ictimai münasibətlərdə qəribə bir epostəbiiliyi, təmizliyi var. Etnoqrafik zənginlik ( və müəyyənlik) İ.Şıxlının şəxsiyyəti üçün elə bir kontekstdir ki, sonradan nə qazanıbsa, nələri mənimsəməyə “məcbur edilibsə”, hamısı bu kontekstdə meydana çıxıb, ondan cilalanıb və onu cilalamışdır.

***Nizami Cəfərov***
***Akademik***

Dəli Kür” İsmayıl Şıxlının təkcə həcmcə ən böyük əsəri olmaqla qalmayıb, eyni zamanda həm müəllifin, həm də son illər Azərbaycan nəsrinin qiymətli nümunələrindən biridir. Bu əsər yazıçının sənətkar yetkinliyinin, kəskin konflikt, dərin psixoloji təhlil əsasında güclü xarakter yaratmaq bacarığını nümayiş etdirən əlamətlərlə zəngindir.

***

İsmayıl Şıxlı bəzi qələm dostları ilə müqayisədə az yazan və təbii ki, əsərləri az çap olunan yazıçıdır. Onun az yazması əsərlərinin bədiiliyi, əlvanlığı və təzəliyi ilə özünü doğruldur. “Az olsun, yaxşı olsun” İsmayıl Şıxlı üçün yalnız şüar deyil, eyni zamanda onun bədii yaradıcılığına pərvəriş verən güclü amillərdəndir.

***Bəkir Nəbiyev***
***akademik***

İsmayıl Şıxlı dil məsələsinə çox tələbkar olmuşdur. O, sözün zahiri təmtərağına uymağı, yaradıcılıqda zahiri effekt axtarmağı acizlik əlaməti saymışdır. Hətta özünün cəbhə gündəliyindəki qeyd əsasında yazdığı ilk hekayəsi olan "Həkimin nağılı" hekayəsini tənqid etmişdir. Onun öz hekayəsinə tənqidi münasibəti belə olmuşdur: "... bu hekayədə də mən nəsrin sakit və təmkinli təsvir vasitələrini lazımınca tapa bilməmişəm. Burada da sözün zahiri təmtərağına, zahiri təsir gücünə daha çox uymuşam. Hadisənin daxili dramatizmini açmaqda çətinlik çəkdiyimə görə təsiredici ifadələr, "şairanə" sözlər axtarmışam. Əlbəttə, bu zəiflik əlamətidir. Mən bu qənaətə gəlmişəm ki, sənətdə zahiri effekt axtarmaq ancaq acizlik əlamətidir".

İsmayıl Şıxlı gənc yazıçıların dili mükəmməl öyrənmələrini, Azərbaycan dilinin zəngin poetik imkanlarından istifadə etmələrini, hər sözün, ifadənin yerli-yerində işlədilməsini onlara məsləhət bilir.

İsmayıl Şıxlı dilimizin quruluşunda süni olaraq dəyişiklik edənlərin "fəaliyyətini" lüzumsuz bir iş sayır. Bu süni dəyişikliyin daha çox dilin sintaktik və leksik quruluşunda aparıldığını söyləyir. Məsələn, İsmayıl Şıxlı dilin sintaktik quruluşunda dəyişiklik etməyə cəhd göstərənlər barədə yazır: "Yenilik axtaran bu "təftişçilər" dilimizin sintaktik quruluşunda da dəyişiklik etməyə cəhd göstərərək cümlələri baş-ayaq edir, mübtəda ilə xəbərin yerini dəyişir və elə zənn edirlər ki, bu yolla cümlələrin emosionallığını artırırlar. Əslində isə dilin ahəngdarlığını və emosionallığını, şeiriyyətini pozur, sözlərin qırıq-qırıq düzülüşü ilə cümlələrin həm məna, həm də zahiri siqlətini zəiflədirlər."

***Buludxan Xəlilov***
***filologiya üzrə elmlər doktoru, professor***

Tez-tez eşidilən bir deyim var, deyirlər: "Yazıçının əsərləri oxunursa, deməli, o, yaşayır". Bunun belə olub-olmadığını mən bilmirəm. Amma onu qəti bilirəm ki, İsmayıl Şıxlı - əsərləri oxunan və sevilən yazıçıdır.

***İntiqam Qasımzadə***
***tənqidçi, tərcüməçi***

İsmayıl Şıxlı yaradıcılığı nəsrimizin elə bir hadisəsidir ki, onsuz bu nəsrin tam qiymətini vermək olmaz."Dəli Kür" Azərbaycan ədəbiyyatının bu yüzillikdə yaranmış ən qiymətli nümunələrindəndir, bədii sözümüzün ittifaq miqyasında nüfuzunu artıran əsərlərdəndir. SSRİ xalqlarının ədəbiyyatı kontekstində yüksək qiymətləndirilib, tarixi romanlar arasında xüsusi yeri göstərilib və hansı yolla gedirsənsə get. Ondan yan keşmək olmaz.

***Sabir Rüstəmxanlı***
***Xalq şairi***

"Dəli Kür"ün uğurunun səbəbi onun xəlqiyindədir. Mənim fikrimcə, xəlqilik, hər şeydən əvvəl, təbiilik və sadəlik deməkdir.Hamıya bəllidir ki, şifahi xalq ədəbiyyatımızın gözəl nümunələrini əsrlər boyu yaşadan və onları bizə sevdirən son dərəcə təbiiliyində və müdrik sadələyindədir

***Hüseyn Abbaszadə***
***Xalq yazıçısı***

"Dəli Kür" romanında cərəyan edən hadisələr ötən illərdə, inqilablar əsrini hazırlayan dövrlərdə cərəyan ersə də, O, müasir əsərdir.Müasirlik isə romanın mündəricəsində, ideyasında, estetik qayəsində, gur hadisələr axınında özünü göstərir. Çünki İsmayıl Şıxlı ötən əsrlərin hadisə və

əhvalatlarını qələmə alsa da, onlara dövrün tələbi baxımından yanaşmış, təsvir erdiyi həyatı inkişafda, daxili ziddiyyətləri ilə canlandırmağa çalışmışdır. Bu da "dəli Kür"ə sərt realizm gətirmiş, onu oxunaqlı. Orijinal kompozisiyalı, yüksək mündəricəli, xəlqi romana şevirmişdir.

***Abbas Hacıyev***

***ədəbiyyatşünas, alim***

İsmayıl Şıxlı elə sənətkar idi ki, təsvir etdiyi hər hansı bir dövrü bütün ictimai-mənəvi aspektləri, təmayülləri ilə bədii reallığa çevirirdi.

***

1976-cı ildə "Azərbaycan" jurnalına baş redaktor təyin olunan İ.Şıxlı uzun illərdən bəri redaksiyada işləyən, təfəkkürü də, qələmi də kiflənmiş əməkdaşlardan jurnalı təmizlədi. Daha sonra bu təmizlik "əməliyyatı" redaksiyanın arxivində aparıldı, ədəbiyyata dəxli olmayan cızmaqaraların kökü kəsildi. Jurnalda uzun zaman kök salmış iş üsulu dəyişdi. Və bunun nəticəsində jurnala istedadların ayağı açıldı.Ədəbiyyatda, yaradıcı təfəkkürdə bir tərpəniş, bir oyanış başlanmışdı və "Azərbaycan" dərgisinin rolu bu prosesdə daha aydın hiss edilməyə başlanmışdı.

***

"Dəli Kür"ə qədər Azərbaycan romanında bəy, mülkədar obrazları yalnız sinfilik meyarları ilə təqdim edilirdi. Sosializm realizminin Azərbaycan modelində Cahandar ağa istismarçı, rəhmsiz, tamam mənfi bir insan idi. Ancaq İsmayıl Şıxlı bu modeldən imtina elədi və Azərbaycan bəyinin, mülkədarının bütün "mənəvi imtiyazlarını" özünə qaytardı.Məlum oldu ki, nə qədər ziddiyyətli və mürəkkəb xarakterə malik olsa da, Cahandar ağa əsl Azərbaycan kişisidir, qeyrət, namus, torpaq hissi onun bütün varlığına hakim kəsilib.

***Vaqif Yusifli***
***ədəbiyyatşünas, tənqidçi***

İ.Şıxlı da eldən aldığı nağıl, əfsanə və rəvayət motivlərini yeni gözlə bədii təxəyyül süzgəcindən keçirərək, folklor təfəkkürü işığında təzə bədii libasa bürüyərək, özünəməxsus üslub tərzində oxucuya çardırır, xalqa qaytarırdı

***Qasım Qasımzadə***
***ədəbiyyatşünas, alim***

İsmayıl Şıxlının hansı əsərini oxusan, gözlərinin qarşısında böyük bir mənzərə açılır, lövhələr yaranır. Sanki bu əsərləri yaradan iki nəfər olub. Yazıçı və rəssam. Çox maraqlı və qəribə ədəbi üsuldur ki, biz bunu İsmayıl Şıxlıda hiss etmişik. Təbiəti deyil, yaratdığı obrazların daxili və xarici aləmlərini elə təqdim edir ki, onun obrazları təkcə mənəviyyatları deyil, nurlu simaları ilə də yaddaşlara çökür. İsmayıl Şıxlının əsərlərində rəssam işi var.

***Flora Xəlilzadə***
***Yazıçı-publisist***

"Dəli Kür" ədəbiyyatımızın ömürlük əsərləri sırasındadır. Bu günlərin ən yaxşı nümunələri ilə birlikdə, bizcə, gələcək nəsillərə də xidmət edəcəkdir... Əsl istedadın şəxsiyyəti parça-parça onun əsərlərinə keçir, bu əsərlərin rəngi, xassəsi kimi əbədiləşir. Yazıçının kitablarındakı müsbət qəhrəmanların prototipləri olsa da, onların hərəsi əsasən bir İsmayıl Şıxlıdır.

*Məstan Əliyev*
*Yazıçı, publisist*

"Ölən dünyam" həqiqi roman təfəkkürünün məhsuludur. Burada hər epizod, hər təsvir, təfsilat və detal, obraz insan xəyalını çəkib uzaqlara aparır, onun düşüncəsinin alt və üst qatlarını oyadır. Ömər koxanın əvvəllər "maral buğasının heykirtisi", "düyələrin mələşməsi eşidilən meşələrdən" indi "çaqqal-tülkü vaqqıltısından qulaq tutulması" ilə bağlı narahatlığında, Alanın (itin) insanlara sədaqətində, canavarlara qoşulub uzun müddət meşədə yaşasa da, öz əslini qorumasında, uzun illərin yurd həsrətindən sonra Həsən ağanın obaya dönüb yurdlarında salamat qalmış və vaxtilə öz əlləri ilə əkdiyi qoca palıdın altında canını tapşırmasında İ.Şıxlının "ölən dünya"sının bizim üçün tam açılması çətin olan çox həqiqətlər gizlənir.

*Təyyar Salamoğlu*
*Ədəbiyyatşünas-tənqidçi*

İ.Şıxlıya görə milli cəmiyyətin hazırkı durumu kök etibarilə yüz - yüz əlli il öncəyə gedir, bu müddətdə milli cəmiyyət bütöv bir sıra sarsıntı keçirir, ictimai-siyasi, mədəni-tarixi proseslərin təsiri il, habelə daxilən patriarxal məzmunu itirməyə başlayır. Cahandar ağanın dünyası dağılan, ölməkdə olan, ölən dünya olsa da yazıçı üçün keçmiş dünya deyildir, ölməz, yaşarı, köklü milli keyfiyyətləri ilə örnəkdir, yaşadılası dəyərlərə malikdir. Bu, həmin "keçmiş"dir ki, yüz il ərzində milli cəmiyyətin bu gününə keçir, çevrilir, qatbaqat, hər dəfə yenidən yeni təfsirə, anlağa uğrayaraq və maraqlıdır ki, yazıçı həmin məzmuna özünə qədərki yanaşmaları, münasibətləri də romanda ehtiva edə bilir.

*Tehran Əlişanoğlu*
*AMEA-nın müxbir üzvü, ədəbiyyatşünas - alim*

Xalq yazıçısı İsmayıl Şıxlı Azərbaycan ədəbiyyatına yeni hava gətirən ən parlaq ədəbi şəxsiyyətlərdən biridir. Zəngin ədəbi ənənələrimizə, folklor yaddaşımıza min-bir tellə bağlı olması, nəsr poetikasının incəliklərinə yüksək tərzdə yiyələnməsi, əsərlərində özünəməxsus bədiiyyatın təcəssümünü verə bilməsi ona ədəbiyyatımızda əbədiyaşarlıq qazandırmışdır. İ.Şıxlı sənətdə olduğu kumu həyatda da vətənpərvərlik duyğularını, vətəndaşlıq qürurunu qorumuş, hər şeydən uca tutmuşdur.

*Elman Quliyev*
*ədəbiyyatşünas-alim*

İsmayıl Şıxlı Azərbaycan xalqının həyat və məişətinə, milli adət-ənənələrinə, milli ruh və psixologiyasına, onun varlığını təşkil və təmsil edən milli-mənəvi dəyərlərə dərindən bələd yazıçı idi.

*Yaqub İsmayılov*
*professor*

İsmayıl Şıxlı dərin erudisiyalı sənətkar olaraq milli – tarixi kimlik mövzusunu bədii düşüncə predmetinə çevirərkən, əlbəttə ki, özəl ədəbi-estetik biçimlərini də ortaya qoymuş olurdu. Xalqının keşməkeşli tale yolunun ağrılarını sinəsinə çəkən ədibin adı çəkilən romanlarında milli özünüifadə pafosunun özəl forma təzahürü sənətkarlıq axtarışlarının uğurlarından soraq verir.

*Himalay Qasımov*
*ədəbiyyatşünas, alim*

# İsmayıl Şıxlı görkəmli şəxslər haqqında

Biz **Səməd Vurğunun** qüdrətli poetik istedadına məftunuq. Səməd Vurğun klassik poeziyamızın, dünya ədəbiyyatının bütün gözəl xüsusiyyətlərini özündə birləşdirən, xüsusən öz xalq sənətinin füsunkar incəliklərini mənimsəyi, ondan bir novator kimi istifadə edən, nadir fitri bir istedaddır. Səməd Vurğun öz poeziyasında xalq dilinin sadəliyi ilə onun poetik qüdrətini birləşdirmişdir.

İnsanın paklığına və nəcibliyinə inanan və bütün yaradıcılığı boyu onu tərənnüm edən Səməd Vurğun Aygünün simasında Azərbaycan qadınlarının məsum, fədakar, genişürəkli, sevməyi bacardığı kimi, bağışlamağı da bacaran, eşqinə və əhdinə axıra qədər vəfalı olan ölməz surətini yaratmışdır. Bu qadın paklıq və ismət mücəssəməsidir.

**Mehdi Hüseyn** bütün varlığı ilə müasirliyə bağlı olan, həyat hadisələrinə daim müdaxilə edən, böyük fikir və amal uğrunda vuruşan, həmişə nəhəng ehtiraslı, mürəkkəb səciyyəli, yenilməz müsbət insan surəti yaratmağa şalışan sənətkarlardandır. Onun bütün yaradıcılığı xalqına, vətənini bu gününə və gələcəyinə bağlı olmuşdur. Mehdi Hüseyn keçmişdən yazanda da bu günü düşünmüşdür... M.Hüseyn yaradıcılığının son anına qədər müsbət amal və ideya uğrunda vuruşan, ən ağır vəziyyətlərdə belə sarsılmayan, mətanət və mərdlik rəmzi olan iradəli insanları əsərlərinə qəhrəman seçmişdir. Onun bu qəhrəmanları insanların səadəti və xoşbəxtliyi üçün özlərini məşəl kimi yandırırlar.

**İmran (İmran Qasımov)** həmişə axtarış aparan sənətkardır. Mən bu sözü təkcə onun bədii söz vasitələri, ya da mövzu axtarması ilə məhdudlaşdırmaq istəmirəm. Çünki bu sahədə onun kifayət qədər təcrübəsi var. İmranın axtarışları xalqımızın tarıxı, onun mətanətli insanları ilə bağlıdır. Dünyanın ən ucqar guşəsindən bir azərbaycanlı balasından yaxşı soraq gəlirsə, İmran bir yazıçı və vətəndaş kimi dərhal onunla maraqlanır, onun haqqında axtarış aparır... Bu mənada "Uzaq sahillərdə" əsəri Mehdi Hüseynzadənin ədəbi heykəlidir.

Lakin şairliyi ədəbazlığa, modabazlığa çevirərək şöhrət qazanmağa şalışanlar da var. Elələri var ki, yanmadan yandırmaq, qanmada qandırmaq istəyirlər. Sənin qəlbin (**Tofiq Bayram**) haqlı olaraq belələrinə dözmür. Şairliyi adi peşə edənlərə, vəzifə gücünə yazışılıq xəyalına düşənlərə qarşı üsyan edirsən. Şair olduqları üçün yox, şair olmaq üçün şeir yazanlara üz tutub çox yerində deyirsən:

Məhəbbəti, ilhamı,
Vəzifəylə almazsan.
Zorla allah olarsan,
Zorla şair olmazsan.

Sevindirici haldır ki, son iyirmi, otuz ildə nəsrimiz və ümumən ədəbiyyatımız xalqın tarixinə, milli xarakter və psixologiyasına, idraki və fəlsəfi anlayışlarına münasibətdə vulqar sosiolojizm qalıqlarından uzaqlaşır. Sinfi xarakterlərin özü də milli vəhdətdə götürülür. **Fərman Kərimzadənin** "Qarlı aşırım" romanının poetik qüdrəti məhz bu cəhətindədir. Abbasqulu ağa Şadlinski və Kərbəlayı İsmayıl üz-üzə dayanan sinfi düşmənlərdir.

Tale onları qarşı-qarşıya dayanan səngərlərə atmışdır. Lakin hər ikisi təpədən dırnağa azərbaycanlıdır, milli xarakterdir. Sinfi mənafedən başqa onları idarə edən milli psixologiya var ki, bunları başqa millətlərin nümayəndələrində bu şəkildə tapmaq mümkün deyil. Mərdlik, kişilik, duz-çörək, haqq-salam təəccübü, qonağa əl qaldırmamaq, düşmənçilikdə də ağayanalıq: bax, budur adını çəkdiyim qəhrəmanları bizə sevdirən. Bax, budur Fərmanın poetik kəşfi. Abbasqulu ağanı da sevdirən, Kərbalayı İsmayılı da. Çünki onlar sırf milli xarakterlərdir, mənəvi kübarlardır.

Mən başa düşürdüm ki, **Xəlil Rza** auditoriyalara, institut çərçivəsinə, proqramlar, dərsliklər həcminə sığışmır. Mən hər dəfə onunla rastlaşanda "məndə sığar iki cahan, mən bu cahana sığmazam" misralarını xatırlayırdım. Şair Xəlil, müəllim Xəlil, bu iki cahanı bir cahanda birləşdirən Xəlil bu məhdud, qapalı cahana sığmırdı...

**İsa Hüseynov** əsl yanar ürək sahibi olan bir sənətkardır. Arzum budur ki, həmişə olduğu kimi, bundan sonra da onun yanar ürəyi sönməz məşələ çevrilsin, tariximizin, müasir psixoloji ailəmizin mürəkkəb, dolambac yollarını işıqlandırsın. Bir də "İnsanlar o vaxt dost olurlar ki, onların məslələri və ürəkləri bir olur. Qardaş, səninlə mənim ürək və məslək dostluğumuza fələk də qələm çəkə bilməz!" Mən bu sözləri İsanın düz otuz iki il bundan əvvəl mənə bağışladığı kitablardan birinin üstünə yazdığı yazılardan götürmüşəm. Düz deyirsən, İsa, bizim ürək və məslək dostluğumuza heç fələk də qələm çəkə bilməz, insanlar olmasa! Qoy tale sənin qəlbini pis insanlardan qorusun!

**İsrayıl Mustafayev** çalışırdı ki, məqalələrində iki cəhət – fikrin aydınlığı və dərinliyi ilə yazının emosionallığı birləşsin, üzvi vəhdət təşkil etsin. Oxucu quru mühakimələrin, cansıxıcı mülahizələrin pəncəsində qalmasın. O həm də oxuduğu məqalədən estetik zövq alsın, həyacanlansın. Bunun üçün də o hər məqaləsinin ruhuna uyğun olaraq yazı tərzi tapır, müxtəlif ədəbi şəkillərdən, təhkiyə üsullarından istifadə edirdi.

**Məmməd Araz**, çox təəssüf ki, ədəbiyyatımızda moda dalınca qaçanlar, oxucuların alqışlarını qazanmaq üçün dəbdə olan mövzu axtaranlar, hardasa cəsarət göstərmək, qəhrəman olmaq xatirinə hay-küy salanlarımız yoxdur. Amma sənin bir sənətkar kimi qibtə ediləcək cəhətlərindən biri odur ki, yanmasan yaza bilmirsən. Ona görə də oxucular sənin bütün şeirlərinin səmimiyyətlə qarşılayırlar. Sənin bir sənətkar kimi üstünlüyün odur ki, sənə inanırlar, səni dinləyirlər, sənin yeni şeirlərini gözləyirlər. Zənnimcə oxucuların qəlbində özünə inam və etibar qazanan sənətkardan xoşbəxt adam ola bilməz. Bu etibar və inamın nəticəsidir ki, onlar səni öz narahatlıqlarının, düşüncələrinin, kədər və sevinclərinin tərcümanı hesab edirlər.

**Nəbi Xəzri** şairliyi, mütəfəkkirliyi unudaraq real gerçəkliyin sadə təsvirlərinə başlayanda canlı lövhələr yaradır. İnsanlar da canlanır, təbiət də. Vəlilərin, Səfərlərin timsalında satqınlıq da, qəddarlıq da nifrət oyadır, onlar vahiməli kabusa dönürlər. Zəhra, Simuzər, Əsmər kimi qurbanlarca uzun müddət unudulmur. Amma mühakimələr və lirik ricətlərdə bəzən süni və az inandırıcı lövhələrə də rast gəlmək olur.

Mən böyük, sarsılmaz, yenilməz qüdrətli xarakterlər təsvir etməyi bacaran yazıçıları və onların yaratdığı zəngin xarakterlərin çarpışması ilə gərginləşən əsərləri daha çox bəyənirəm. Bunu belə başa düşmək lazım deyil ki, böyük xarakterlər yalnız böyük qəhrəmanlarda ola bilər. Yox! Sadə insanlarda da böyük xarakter var. Məsələ onu necə təsvir etməkdədir. **Şamo Arifin** "Qınamayın məni..." romanını da mənə sevdirən cəhətlərdən biri məhz bu cür

xarakterlərin böyük ustalıqla yaradılmasıdır. Mübaliğəsiz deyə bilərəm ki, "Qınamayın məni..." romanı xarakterlər romanıdır.

## İsmayıl Şıxlını ədəbi qeydləri

**"Heç bir ağac çürüməz, içindən öz kökünə balta vuran xainlər, satqınlar olmasa, heç bir ölkə dağılmaz, nadanlar ona rəhbərlik etməsə!** Heç bir xalq basılmaz, özünün qan soran zəliləri onu taqətdən salmasa! Adam sarsılmaya bilmir. Belə ağ yalan, saxtakarlıq, simasızlıq və şərəfsizlik, yaltaqlıq mühitində insan az qalır öz xalqına da nifrət edə. Tapınmağa müqəddəs bir yer, qüvvə axtarırsan əlin boşa çıxır. Bircə əlacın ona qalır ki, əlini göyə qaldırıb: Alah belə xalqa da, onun baş bilənlərinə də ağıl versin, deyəsən.

**Qanadı çıxan qarışqa elə bilir ki, uçmaq səadətinə nəsib olmuşdur**. Amma başa düşmür ki, qanad çıxartmaq qocalığa, ölümün yaxınlaşmasına işarədir. İndi insanlıq da bu vəziyyətdədir. Təbiəti korlamışıq, qəribə görünsə də hər şey bizdən qayğı və kömək gözləyir. Meşələr, axan çaylar, dənizlər, yaşıl çəmənlər, şır-şır bulaqlar, başı dumanlı dağlar qayğıya möhtacdır. Zəhərdən qaçan quşlar, güllələrdən qırılan ceyranlar, dənizdəki balıqlar insanlardan imdad və kömək diləyir. Bu dəhşətləri törədən insanlar özləri də aman diləyir. Kimlərdən? Bir-birlərindən.

**Bizim də Kürümüz var: ana Kürümüz, dəli Kürümüz.** Kür dünya xəritəsində balacadır, çox balaca, nazik sap kimi. Onu yuxarıda adını çəkdiyimiz çaylarla müqayisə etmək olmaz. Onlar iridir, böyükdür, suyu da boldur. Amma Kürdə Kürdür. Öz şıltaqlığı ilə, dəliliyi ilə, sahillərindəki meşələri ilə, suvardığı torpaqları ilə, Azərbaycanı başdan-başa keçib, çölləri, düzləri bərəkətləşdirməsi ilə, parçalanmış torpağımızın sərhədlərini yalaya-yalaya gəlib Muğana çıxan Arazı qucaqlaması ilə bizə əzizdir. Kür Azərbaycanın mavi fəqərə sütunudur, dağlarımızdan baş alıb gələn balaca çaylarımızı özünə bitişdirən qollu budaqlı fəqərə sütunu. Biz onu qorumalıyıq, göz bəbəyimiz kimi saxlamalıyıq.

**Allah bizi, Azərbaycan torpağını, Azərbaycan xalqını sapı özümüzdən olan baltalardan qorusun.** Mən siması bəlli olan düşmənlərin heç birindən qorxmuram. Hər cür zülmün, hər cür ədalətsizliyin əvvəl-axır sona yetəcəyinə inanıram. Lakin özümüzkülərdən – "sapı özümüzdən olan baltalardan yaman qorxuram".

**Şairlik fədakarlıqdır. Şair başqalarının yolunu işıqlandırmaq üşün özü yanıb kül olmalıdır.**

Laqeydlik və obıvatellik şairliklə bir araya sığışa bilməz.Şair xalqın vicdanıdır.Vicdan isə daim ədalət və haqq yolunda çarpışmalıdır.Şair daim pisi –pis, əyrini əyri, düzü həmvar yazmalı, bəzi "qarelərin gözünü bərəltməsindən" çəkinməməlidir.

**Müəllimliyə sadəcə savad öyrədən bir sənət kimi baxmaq ən azı bu sənətin mahiyyətini anlamamaqdan başqa bir şey deyil.** Müəllimlik çox müqəddəs, ülvi və çətin bir sənətdir.Bu elə bir sənətdir ki, cəmiyyət ona hələ dünyagörüşü, həyat anlayışı formalaşmayan, pak, təmiz bir

nəslin, öz gələcəyinin tərbiyəsini tapşırır. Bu gənc nəslin necə insan, vətəndaş olması müəllimdən asılıdır.

**Sənətkarın qüdrəti yalnız mövzu seçməkdə deyil, bu mövzunu necə işləməsi ilə təyin edilir.** Həyat hadisələrini, insanları bilmək hələ yazıçı olmaq demək deyil. Yazıçı olmaq üçün bu həyat materiallarını bədii yüksəkliklərə qaldırmaq lazımdır. Bu isə sənətkarın gücünü təyin edir.

**Məlumdur ki, dil yazıçı qüdrətinin məhək daşıdır.** Dil-səciyyələri açmaqda yazıçıya kömək edən ən yaxşı vasitədir. Dil-sadəcə cümlə üzvlərinin qrammatik qayda-qanunlar əsasında düzülüşü demək deyil, dil-yazıçı üçün ehtirasları toqquşduran, surətin daxili varlığı ilə intellektual aləmini aşkara çıxaran bir vasitədir. Dil yazışı üşün hər şeydir.

**Aşıqlarımızın əsrlər boyu yaratmış olduğu dastanları, qoşmaları, nağılları, bayatıları diqqətlə nəzərdən keçirsək, burada xalqımızın tarixini görərik.** Bizim xalq bəzən Kərəmin dili ilə ağlayıb, öz qəm və kədərini izhar edib, bəzən isə Koroğlunun dili ilə nərə çəkib meydana atılmış, yağı düşmənləri qılıncdan keçirmişdir. Biz nağıl və dastanlarda xalq yumoruna, onun şənliyinə, iztirab və həsrətinə, qəzəb və nifrətinə, gələcəyə ümid bəsləyən nikbin əhval və ruhiyyəsinə rast gəlirik.

**Ziyalılıq başqa şeydir, savadlılıq başqa**. Ziyalı hər şeydən əvvəl mənəvi kübar olmalıdır. Bu kübarlıq onun zahiri əlamətləri ilə yox, mənəvi zənginliyi ilə şərtləşməlidir. Bu mənəvi zənginliyi isə mən ilk növbədə, onun yüksək amalında görürəm. Torpağa bağlılıq, xalqa bağlılıq, yüksək insani-bəşəri hisslərə maliklik, özünü sözdə yox, həqiqi mənada millətinin, xalqının zərrəsi hesab etmək, onunla birgə yaşamaq - ziyalının amalı olmalıdır. Və nəhayət həqiqi ziyalı özünü unutmağı, özünü fəda etməyi bacarmalıdır. Ədalət, vicdan, fədakarlıq, cəsarət, mənəvi cəngavərlik onun əsas keyfiyyəti olmalıdır. Belə olduqda xalq ona inanacaq, onun arxasınca gedəcək, onu özünə dayaq, başçı hesab edəcək.

## Kitabları

Ölən dünyam : Roman. - Bakı : Qanun, 2011. - 208 s.

I cild : Romanlar. - Təkrar nəşr, 1971, 1991, 1992 və 1995-ci il nəşrləri əsasında. - Bakı : Şərq-Qərb, 2005. - 408 s.

II cild : Dəli Kür : Roman. - Təkrar nəşr, 1982-ci il nəşri əsasında. - Bakı : Şərq-Qərb, 2005. - 400 s.

## Əsərləri kitablarda

Kerç sularında : hekayə // Azərbaycan nəsri antologiyası. 5 cilddə. - Bakı : Şərq-Qərb, 2006. - C. 4. - S. 161-178.

Məleykə xala : hekayə // Talvar. - Bakı : Təhsil, 2009. - S. 65-74.

## Əsərləri dövrü mətbuatda

Bahar axşamında // Ədəbiyyat və incəsənət. - 1968. - 23 mart. - S. 5-6.

Cəbhə yolları // Ədəbiyyat və incəsənət. - 1968. - 17 fevral.

Çiskin ; Qara ət // Ədəbiyyat və incəsənət. - 1970. - 19 sentyabr. - S. 8-9.

Dostum Hüseyn Arifin lətifələri // Ədəbiyyat qəzeti. - 1991. -29 mart. - S .7-8

Namərd gülləsi // Ədəbiyyat və incəsənət. - 1987. - 20 noyabr. - S. 4.

Nəyə əl çaldılar? ; Köynək // Ədəbiyyat və incəsənət. - 1974. - 9 fevral. - S. 8-9.

Onu danışdıran var // Ədəbiyyat və incəsənət. - 1980. - 10 oktyabr. - S. 4.

Qardaş moldav torpağında: Yol qeydləri // Kommunist. - 1965. - 25 iyun.

Quşlar: şeir // Ədəbiyyat qəzeti. - 1938. - 24 noyabr.

Xasiyyətimdir ; Bəs zınqırovu kim açacaq? // Ədəbiyyat və incəsənət. - 1982. - 12 mart. - S. 4.

Zərbə ; Möhür basdım, get: // Ədəbiyyat və incəsənət. - 1973. - 8 dekabr. - S. 8-9.

## Haqqında kitablarda

**Cəfərov N.** İsmayıl Şıxlı yaxud mənalı ömrün dastanı : məqalə // Klassiklərdən müasirlərə. - 2004. - S. 162-172.

**Cəfərov N.** İsmayıl Şıxlı, yaxud müdrikiliyin poetikası // Klassiklərdən müasirlərə. - Bakı : Çaşıoğlu, 2004. - S. 173-180.

İsmayıl Şıxlı (1919-1995) // Müasir Azərbaycan ədəbiyyatı. 2 cilddə. – Bakı, 2007. – C.2. - S.154-161.

**Xəlilov B.** İsmayıl Şıxlının dilçilik görüşləri. – Bakı: Çap evi, 2014. – 170 s.

**Xudiyev N.** İsmayıl müəllim xalq tərəfindən sevilən, qəbul edilən ictimai xadim idi // Zamanın axarı ilə. – Bakı: Azərnəşr, 2004. – S. 333-335.

## dövri mətbatda

**Abbaslı T.** Fitrətilə böyük ədib... : Mühazirələrilə "lokal" auditoriya, şəxsiyyətilə qlobal həyat dərsləri Müəllimi! // Mədəniyyət. - 2019. - 26 aprel. - № 31. - S. 6.

**Abbaslı T.** Qələmlə söylənən dərs // Mədəniyyət. – 2012. – 25 iyul. – S. 6.

**Abbaslı T.**Yazılı seminar // Mədəniyyət. – 2015. – 24 iyul. - № 56.

**Abbaslı T.** Mühazirəvarı...: Uzun illər ali məktəbdə bənzərsiz mühazirələr aparmış İsmayıl Şıxlının ruhi-mənvi auditoriyasına... // Mədəniyyət. - 2014. - 25 iyul. - S. 13.

**Ağabalayeva S.** Kür meydanı ram eləmək: Xalq yazıçısı İsmayıl Şıxlının 100 illiyinə // 525-ci qəzet. - 2019. - 20 mart. - S. 16, 19.

**Ağaoğlu M.** Dəli Kür ibrət kitabı // Ədəbiyyat qəzeti. – 2016. – 30 iyul. – № 28. - S. 22.

**Akimova E.** "Dəli Kür" : dəyişən dəyərlər və roman texnologiyası kontekstində // Ədəbiyyat qəzeti. - 2019. - 22 iyun. - № 21. - S. 10-11.

**Azəri L.** Əsərləri və şəxsiyyəti ilə əbədiyaşar ədib : İsmayıl Şıxlının 100 illiyi ilə bağlı biblioqrafik nəşr və elektron toplunun təqdimatı // Mədəniyyət. - 2019. - 24 aprel. - № 30. - S. 1, 4.

**Azəri S.** Anlamaq dərsi // Ədəbiyyat qəzeti. – 1994. – 18 mart. – – № 12. - S. 2.

**Azəri L.** “Sənətkar və zaman” // Mədəniyyət. - 2014. - 2 aprel. - S. 12.

**Azəroğlu.** İsmayıl Şıxlı düşünərkən // Ədəbiyyat qəzeti. – 2005. – 12 avqust.

**Bayramov B.** Xalqın istəklisi // Ədəbiyyat və İncəsənət. – 1989. – 7 aprel. – № 14. - S. 4.

**Bayramova S.** Daşa yazılmış şəkil kimi : İsmayıl Şıxlının uşaq hekayələri // Ədəbiyyat qəzeti. - 2019. - 28 dekabr. - № 53. - S. 25.

**Bayramova Z.** Xalqımızın bədii fikir tarixinə yeni parlaq səhifə açmış yazıçı // Səs. - 2019. - 30 yanvar. - S. 10.

**Cəfərov N.** 70 yaşın hikməti // Azərbaycan gəcləri. – 1989. – 6 aprel.

**Cəfərov N.** Yazıçı şəxsiyyəti, yaxud müdrikliyin poetikası // Azərbaycan müəllimi. – 1989. – 31 mart.

**Dünyamalıyev D.** Unudulmaz insan // Azərbaycan müəllimi. – 2000. – 6-12 iyul.

Ədəbiyyat İnstitutunda İsmayıl Şıxlı konfransı // 525-ci qəzet. - 2019. - 31 may. - S. 9.

**Əfəndiyev P.** İsmayıl Şıxlı // Azərbaycan müəllimi. – 2006. – 28 iyul.

**Əhədqızı Z.** İsmayıl Şıxlı-90 // Ədəbiyyat qəzeti. -2009. - 24 iyul. - S. 2.

**Əhmədov R.** Örnək şəxsiyyət İsmayıl Şıxlı- 90 // Xalq qəzeti. - 2009. - 19 aprel. - S. 7.

**Əmir M.** Ömür böyük yoldur // Azərbaycan. – 1985. - № 3. – S. 18-23.

**Əsgərqızı S.** Qeyrət mücəssəməsi // Ustad. – 2012. - № 3/4. – S. 8-12.

**Əsgərli Z.** İsmayıl Şıxlı haqqında monoqrafiya // Azərbaycan müəllimi. – 2001. – 4-10 yanvar.

**Əsgərov Ə.** Yazıçı kimi ölümsüz, şəxsiyyət kimi əvəzsiz : Xalq yazıçısı, görkəmli ədib və pedaqoq İsmayıl Şıxlı ilə bağlı xatirələr yaddaşıma ömürlük həkk olunub // 525-ci qəzet. - 2019. - 16 oktyabr. - № 138. - S. 22 ; 18 oktyabr. - № 139. - S. 15 ; 19 oktyabr. - № 140. - S. 21.

**Fərəcova Z.** 2019-cu il yubilyarları : Prezident İlham Əliyevin verdiyi sərəncamlar görkəmli şəxsiyyətlərimizə, onların fəaliyyətinə və zəngin diqqət və ehtiramın ifadəsidir // Azərbaycan. - 2019. - 31 dekabr. - № 293. - S. 15.

**Həsənzadə M.** Həyatın tələbi // Kommunist. – 1984. – 2 fevral.

**Hüseynoğlu S.** Sənətkar əbədiyaşarlığı İsmayıl Şıxlı-90 // Ədəbiyyat qəzeti. - 2009. - 8 may. - S. 6.

**Hüseynov Ə.** Ünvansız məktub // Ədəbiyyat qəzeti. - 2009. – 24 iyul. – S. 5.

**Hüseynova M.** Şıxlıdan gəlmiş işıqlı adam // Palitra. - 2019. - 6 noyabr. - № 138. - S. 12.

Xalq yazıçısı İsmayıl Şıxlının 100 illik yubileyi qeyd ediləcək // Mədəniyyət. - 2019. - 30 yanvar. - № 8. - S. 1.

**Xəlilov B.** İsmayıl Şıxlının həyat və yaradıcılıq yolu // Xalq qəzeti. – 2009. – 20 may. – S. 7.

**Xəlilzadə F.** Ədəbiyyatımızın Cahandar ağası // Azərbaycan. – S. 7.

**Xəlilzadə F.** Ləpələrin çatmadığı sahillər // Azərbaycan. – 2012. – 17 mart. – S. 11.

**İsmayıl F.** Milli ruhlu yazıçı : İsmayıl Şıxlı - 100 // Azərbaycan. - 2019. - 18 avqust. - № 179. - S. 4.

İsmayıl Şıxlı (1919-1995) // Savalan. – 2019. – 4-10 iyun. – S. 2.

İsmayıl Şıxlının 100 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (28 yanvar 2019-cu il) // Azərbaycan. - 2019. - 29 yanvar. - № 22. - S. 1.

İsmayıl Şıxlının 100 illiyi ilə əlaqədar tədbirlər planı təsdiq olunub // Mədəniyyət. - 2019. - 5 aprel. - № 25. - S. 1, 4.

İşıqlı duğular // Ədəbiyyat qəzeti. – 1994. – 18 mart. – № 12. - S. 2.

**Kərimova N.** İsmayıl Şıxlı əsl müəllim idi // Azərbaycan müəllimi. – 2007. – 13 iyul.

**Qabil.** Yazıblar, yazırlar, yazacaqlar // Ədəbiyyat qəzeti. – 1991. – 19 aprel. – № 16. - S. 7.

**Qasımlı H.** Xatirələrim // Ədəbiyyat qəzeti. – 2012. – 24 fevral. – № 7. - S. 5.

**Qasımov H.** Xalq yazıçıları ilə görüş // Azərbaycan. – 1994. – 30 iyul.

**Qasımov H.** İsmayıl Şıxlı yaradıcılığının milli-mənəvi qaynaqları // Xalq qəzeti. - 2009. – 5 aprel. – S. 7.

**Qasımov H.** Ləyaqət simvolu // Xalq qəzeti. – 1999. – 25 aprel. – S. 5.

Qazaxdakı İsmayıl Şıxlı parkında abadlıq işləri görülüb // Ədəbiyyat qəzeti.- 2022.- 16 iyul.- S.32.

**Qiyas Ə.** O kitabı atamın qırx mərasimində məzarı üstə apardım : ["Varislər"in bugünkü qonağı İsmayıl Şıxlının oğlu Elçin Şıxlıdır] // Ədəbiyyat qəzeti. - 2021. - 2 oktyabr. - № 39. - S. 16-17.

**Quliyev E.** Bədii möhtəşəmliyin – "Dəli Kür"ün dil poetikası // 525-ci qəzet. - 2013. - 23 fevral. - S. 29.

**Mansurzadə A.** Müdrik sənətkar // Bakı. – 1989. – 3 aprel.

**Məmmədov A.** Həyat hekayələri // Azərbaycan. – 1987. – № 4. - S. 182-183.

**Məmmədov Ş.** Xalqa bağlı sənətkar // Azərbaycan müəllimi. – 1999. – 6-12 may.

**Mirməmməd G.** Öləm dünyamdan sonrakı söhbət // Panorama. – 1997. – 20 mart. – S. 3.

**Mustafayev R.** İsmayıl Şıxlı şəxsiyyəti : İsmayıl Şıxlı-100 // 525-ci qəzet. - 2019. - 1 mart. - S. 8.

**Müşfiq Ş.** Yaddaşlarda əbədi yaşayan sənətkar - İsmayıl Şıxlı // 525-ci qəzet. -2019. - 13 mart. - S. 6.

**Mütəllibov T.** Baharlı ömür // Azərbaycan gəncləri. – 1979. – 22 mart.

**Naibov C.** Həmişə sevəcəyik // Azərbaycan müəllimi. – 1989. – 29 noyabr.

**Nəbiyev B.** Vüqarlı, əzəmətli // Ədəbiyyat qəzeti. – 2008. – 14 mart. – № 10. - S. 2-3.

**Nəsib D.** Ağır taxtalı kişi // Ədəbyyat qəzeti. – 2002. – 7 iyun. № 23. – S. 3-4.

**Niyazov X.** Ölməz sənətkarın son əsəri // Azərbaycan. – S. 4.

**Rüstəmxanlı S.** Müdriklik // Kominist. – 1989. – 2 aprel. – S.3.

**Rüstəmzadə A.** Nəsrimizdə parlaq sima : İsmayıl Şıxlı – 100 // Azərbaycan. - 2019. - 27 iyul. - № 162. - S. 6.

**Rzayev T.** Əbədi ömür // Azərbaycan. - 2019. - 1 may. - S. 7.

**Salamoğlu T.** Nəsr dilinin şeiriyyəti monoqrafik araşdırma obyekti kimi // 525-ci qəzet. - 2013. - 13 fevral. - S.7.

**Səmədoğlu Y.** Ağsaqqal sayqısı // Ədəbiyyat qəzeti. – 1994. – 18 mart. – – № 12. - S. 2.

**Sultanova S.** Ekranlaşdırılmış ədəbi əsərlər // Ədəbiyyat qəzeti. - 2019. - 16 mart. - S. 21.

**Şıxlı E.** Babam yadımdadır // Ədəbiyyat qəzeti. – 1999. – 16 aprel.

**Vahabzadə B.** Dəli olmuşam // Ədəbiyyat qəzeti. – 1999. – 16 aprel. – № 15. – S. 4.

**Vəliyev V.** Qazaxda Xalq yazıçısı İsmayıl Şıxlının xatirəsi anılıb // Mədəniyyət. - 2016. - 3-5 avqust. - S. 13.

Yaradıcılıq yollarında // Ədəbiyyat və incəsənət. – 1983. – 23 dekabr.

**Yasinzadə Ə.** Cəbhə yolları // Azərbaycan pioneri. – 1985. – 13 sentyabr.

**Yusifli V.** Şəxsiyyət // Panarama. – 1999. – 16 mart. – S. 6.

**Tərtib etdi :** **Musazadə Nigar**